# Ən böyük təltif

*Bu vəfasız ömür, bu coşqun dərə.*
*Gərək boş-boşuna axıb keçməsin!*
*Bu gözəl cahanı sanıb pəncərə*
*Hər gələn sadəcə baxıb keçməsin!*

**M. Müşfiq.**

Dünyaya göz açandan ağ rəngin işığı qəlbinə, üzünə nur çiləmişdi sanki... Anasının əynindəki ağ xalatı gördükcə hələ körpə yaşlarından ona elə gəlirdi ki, analar ağ xalatı geyinməyi xoşlar. İllər ötdükcə ağ xalat ona sehr qaynağı təsiri bağışlardı...



Əgər insanları ağxalatlılar həyata qaytara bilirsə, deməki onlar Allahın ən sevimliləridir.

Hələ şagirdlik dünyasında anasının bu peşəsinə marağı böyük idi. Elə buna görə də orta təhsili başa vurduqdan sonra həkim olmaq, bu şərəfli peşə ilə insanların sağlamlığı keşiyində dayanmaq qərarına gəldi.

Məhəmməd Kərimli 1992-ci il mayın 30-da Qəbələ şəhərində doğulmuşdur. 2009-cu ildə Azərbaycan Tibb Universitetinə qəbul olmuş və hərbi həkim peşəsinə yiyələnmişdir. 2015-2019-cu illərdə Bakıda hərbi hissələrdən birində həkim işləmişdir. 2019-cu ildə Füzuli rayonundakı hərbi hissələrdən birinə işə göndərilmişdir.

Hərbi həkimlər Hippokrat andından əlavə hərbi and da içirlər. Onlar fövqəladə və ekstremal vəziyyətdə çalışmalı (döyüşlər, təbii fəlakətlər, qəzalar) əsasən əməliyyat xarakterli yardım göstərməli olurlar. Hərbi həkimlər adi tibbi fənlərlə yanaşı həm də hərbi spesifik vəziyyətləri, hərbi əməliyyatlardan sonra reabilitasiyanın ən yeni metodlarını öyrənirlər. Əsas xüsusiyyət döyüş şəraitində tibbi yardım göstərmək bacarığıdır. Bu isə həyat üçün böyük təhlükəylə bağlıdır. Həmçinin hərbi həkimdə amirənəlik xüsusiyyəti olmalıdır ki, tibb xidmətini və səyyar tibb məntəqəsinin işini lazimi səviyyədə təşkil etsin.

Bu zaman tək tibbi bacarıqlar deyil, həm də, yaralıların bu cəbhədən tibb sanitar batalyonuna düzgün təxliyyəsini tez təşkil etmək lazımdır ki, orada onları əməliyyat etdikdən sonra arxa cəbhəyə göndərsinlər.

Məhəmməd Kərimli öz saninstruktorları ilə birlikdə müxtəlif qaynar nöqtələrdə 400-ə yaxın döyüşçünü ölümdən qurtarıb. Bu qrupa çavuş Qayqay Qasımov, çavuş Vahid Şıxalıyev, kiçik çavuşlar Tural İsmayılzadə, Səyyad Teymurov, Sənan Zöhrablı, Saday Səbailov daxildirlər. Həmçinin söhbət zamanı o, hərbi həkim, baş leytenant Rəhim İmranlının da qəhrəmanlığından danışdı.

Məhəmməd Kərimli döyüş anlarından elə həyacanla danışırdı ki...

Hər gün döyüş meydanından 15-20 yaralı çıxarırdıq. Bu zaman sanitar maşınımız güllə və qəlpələrlə deşik-deşik olurdu. Ancaq güllə əksər vaxtlarda bizə dəymirdi, Allah saxlayırdı.

Ən şiddətli döyüşlər Füzuli istiqamətində oldu. Burada düşmən bir neçə sıralı istehkam müdafiəsi qurmuşdu. Yaralılarımız və itkilərimiz oldu. Ancaq düşmənə manevrlər nəticəsində arxadan zərbə endirərək, Cəbrayıl rayonu tərəfdən girdik və bu rayonu ala bildik.

Döyüşlərdən birində minamyot atəşinə tutulmuş səngərlərdən yaralıları xilas edirdik, onlar torpaq altında qalmışdılar. 35-40 yaşlarında bir döyüşçünün dözümü, çoxlu qan itirməsinə rəğmən ölümü də qorxmaz, təmkinlə qarşıladı, ona "Səni tezliklə qurtaracağıq" deməyimizə baxmayaraq, "Mən çatmayacam, şəhid oldum" - dedi...

Mən briqada komandiri üçün, adətən döyüş yerinə 4 sanitar "UAZ"-la gedirdik. Hər maşında komandanın üzvləri 2 həkim olurdu.

Döyüşlərdən birində yaralıları götürdük, avtomobillərin bir hissəsini göndərib, başqa yaralıların arxasına getdik...

Avtomobildə 3 yaralı var idi. Mən ön tərəfdə oturmuşdum... Yaralının birində qanaxma başladı, maşını saxlayıb arxaya keçdim.

Yaralının qanaxmasını kəsməyə çalışırdım. Güclü partlayış baş verdi. Tank əleyhinə minaya düşmüşdük. Avtomobil dağıldı, məni isə "dalğa" göyə atdı. Yerə düşərkən ağrıdan gözümü aça bilmirdim, onurğamı zədələmişdim və sandım ki, əllərimi və ayaqlarımı itirmişəm. Hətta Kəlmeyi-şəhadəti də oxudum... Hiss etdim ki, yanıram. Yanğını dayandırmaq üçün tez-tez yerdə çevrilməyə başladım... Bədənimin 40 faizi yanmışdı. Ağrılarıma rəğmən, yanğımı söndürən kimi, çətinliklə hərəkət edə-edə yaralıları axtardım. Sürücü və yaralının biri şəhid olmuşdu... Vəziyyətləri ağır olsa da yaralılardan ikisi sağ idi. Onlara necə kömək edəcəyimi düşünürdüm. Rabitə yox idi, düşmən olan ərazidə



idik. Başımızın üstündən güllələr uçurdu... Diqqətlə baxanda gördüm ki, qarşıdakı təpələrdən birində 5 erməni bizə tərəf gəlir. Avtomobilin tibbi olmasının onlar üçün fərqi yox idi, birtəhər yol kənarındakı əvəllər vurulmuş "Ural"ın altına süründüm. Silah axtarmağa çalışırdım... İstəyirdim ki, onların diqqətini yaralılardan yayındırım, sonra ağrılarıma rəğmən yaxınlıqdakı meşəyə girdim. 10 nəfərlik qara maskalı dəstəyə rast gəldim. Onların erməni əsgərləri olduğunu düşünürdüm. Ölümümü düşündüm... Onlar yaxınlaşdıqda, əsgərlərdən biri maskanı çıxardı və onu tanıdım. Bu bizim briqadanın kəşfiyyatçısı idi...

Arxamca gələn erməniləri igid əsgərlərimiz məhv etdilər. Biz birlikdə şəhidlərimiz və yaralılarımızı götürdük.

Əvvəlcə Cəbrayıldakı hospitala, sonra Füzuli rayonundakı tibb mərkəzinə, oradan da Bakıdakı hərbi hospitala göndərildim və müalicə olundum.

Məhəmmədin ailəsi onun hospitalda işlədiyini düşünürdülər. Axı o, hərbçi həkim idi.

Döyüş bölgəsində olduğunu isə yaralanıb Bakıya gələndən sonra bilmişdilər.

II qrup əlil olan gənc həkim bədənindəki və sifətindəki yanıq izlərinin onun Zəfər qələbəsinin "tarixi izləri" olduğunu düşünür.

Məhəmməd həkim bu müharibədə vətən övladlarının, xalqımızın neçə gözəl xüsusiyyətlərə, keyfiyyətlərə malik olduğunun bir daha hiss olunduğunu, xalqın birliyi, vətən övladlarının igidliyi ilə zəfər çaldığımızı söylədi.

Baş leytenant Məhəmməd Kərimli artıq öz iki körpəsinə, ailəsinə qovuşub. O, "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

Əsgərlərimizin yenidən həyata dönməsinə kömək edən hərbçi həkimin ən böyük təltifi isə o yaralıların gözlərindəki həyat eşqi idi.

***Afət SÜLEYMANZADƏ,***
**"Qəbələ".**

# Fransa mətbuatı Alban-Udi Xristian icmasından yazdı

Azərbaycan haqqında niyə danışmaq lazımdır? Fransanın "qapazaltı" mətbuatı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin gedişində Ermənistanı təşviq edirdi. Amma reallığı bilmək lazımdır.

Dünyəvi, çoxmədəniyyətli, çoxkonfessiyalı Azərbaycan dünyanın ən tolerant ölkələrindən biridir. Bu və sonrakı məqalələrimizdə Azərbaycanda yaşayan müxtəlif icmalardan bəhs edəcəyik. Bu dəfə Azərbaycandakı Alban-Udi Xristian dini icmasından danışacağıq. Müsahibimiz icmanın sədri Robert Mobilidir.

- Udilər kimlərdir?

- Hazırda Azərbaycanda udilərin sayı təxminən 10 min nəfərdir. Onların öz dili, dini, mədəniyyəti, adət-ənənələri var. Onlar haqda məlumatlara eramızdan əvvəl V əsrdə yaşamış yunan filosof Herodotun "Tarix" əsərində, yenə eramızdan əvvəl I əsrdə yaşamış Strabonun "Coğrafiya" əsərində, Qay Plini Sekundinin, Azinius Qudratenin və digər qədim müəlliflərin əsərlərində rast gəlinir. Ən yaxşı mənbə isə VIII əsrdə yaşamış Moises Kalankatlının "Qafqaz Albaniyasının tarixi" əsəridir.

Udilər Azərbaycan Respublikasının vətəndaşlarıdırlar. Onlar əvvəllər qədim Qafqaz Albaniyasında yaşayıblar, indi isə Azərbaycanın Qəbələ və Oğuz rayonlarında məskunlaşıblar. Azərbaycan tarixən çoxsaylı qədim xalqların, etnik qrupların öz milli mənsubiyyətini, dini inancını, adət-ənənələrini qoruyub saxlayaraq yaşadığı məkan olub. Digər azlıqlar kimi, udilər də dövlətin yürütdüyü multikulturalizm siyasəti sayəsində zəngin tarixi keçmişini qoruyub, bir ailənin üzvləri kimi, azərbaycanlılarla bütün sahələrdə əlaqələr qurublar.

Fransız yazıçı Aleksandr Dümanın "Qafqaza səyahət" əsərində bildirilir ki, udilər Qafqazda yaşayan tayfaların nümayəndələridir, baxmayaraq ki, bu ləhcədə danışan qəbilələrin sayı az olub. Onlar çox maraqlı insanlardır. Başqa dillərə oxşamayan dildə danışırlar.

Bir millətin şəxsiyyətinin göstəricilərindən biri, əsrlər boyu yaratdığı maddi mədəniyyətdir. Udilərin geyim ənənələrini, mətbəxlərini, ən müxtəlif mərasimlərini, həyat tərzlərini qoruyub saxlamaları onlara özünəməxsus millət kimi qalmasına imkan verib.

Qafqaz Albaniyasının qədim paytaxtı olmuş Qəbələ rayonunun Nic kəndində yaradılmış Udi Xalq Mədəniyyət Mərkəzi udilərin qədim ənənələrinin inkişafı və qorunması ilə məşğuldur. Azərbaycanın xüsusiyyətlərindən biri olan tolerant cəmiyyət, milli və dini ayrı-seçkiliyin olmaması udilər də daxil olmaqla, milli azlıqların, etnik qrupların öz mövcudluğunu qorumaları üçün əlverişli şərait yaradıb. Bu gün Azərbaycan dövləti udi icmasının fəaliyyətinə davamlı dəstək verir.

Udi folkloru çox rəngarəngdir. Müxtəlif oyunlar, əyləncə proqramları, lirik və qəhrəmanlıq mahnıları, rəqslər, əfsanələr və miflər gündəlik həyatla uzlaşır. Hətta xristianlığı qəbul etdikdən sonra belə, Qafqaz Albaniyasının digər tayfaları kimi, udilər də öz keçmiş həyat tərzlərini, ənənələrini unutmayıblar. Məsələn, keçmiş inanclardan olan aya ibadət hələ də mövcuddur.

Udi milli rəqsləri, eləcə də "Yallı" və "Uzundərə" kimi milli Azərbaycan rəqsləri toylarda və şənliklərdə bu gün də ifa olunur. Cümə günü xoşbəxtlik gətirən gün sayılır. Həmin gün başladılan iş birqayda olaraq, uğurla davam edir.

Udilər xristian olsalar da, onlarda qurban kəsmək kifayət qədər geniş yayılıb. Qurbanlar adətən müqəddəs hesab edilən ibadətgahlarda kəsilir. Nic qəsəbəsinin hər məhəlləsində, hər küçəsində belə yerlər var. Xristianlar bu adətdən çoxdan əl çəksə də, udilərdə qalmaqdadır. Bu, Nic kəndinə səfər edən xristian turistləri tez-tez təəccübləndirir.

Alban-Udi Xristian dini icması Azərbaycan Respublikasında 2003-cü ildə qeydiyyata alınıb. O vaxtdan, dövlət kilsələri bərpa, ibadəti təşviq etməyə başlayıb. 2006-cı ildə Şəki rayonunda yerləşən və Qafqazın ən qədim kilsələrindən olan Kiş məbədi də bərpa olunub. Nic kəndində yerləşən üç xristian məbədindən biri olan Müqəddəs Yelisey adına Cotari Kilsəsi udi icmasının ibadəti üçün yenidən açılıb.

Qədim dövrdən bəri Alban Apostol Kilsəsi Azərbaycanda müstəqil kilsə kimi fəaliyyət göstərib. Qafqazın çar Rusiyası tərəfindən işğalından sonra, 1830-cu illərdə o, erməni qriqoryan kilsəsinin tərkibinə verilib. Yalnız Azərbaycanın müstəqilliyinin bərpası udilərə Alban Apostol Kilsəsini də bərpa etmək imkanı verib. Udilər Alban Kilsəsinin dini varisləridir və bu gün də onun qorunub saxlanmasını təmin edirlər.

Qarabağda, Laçın və Qubadlıda qədim alban kilsələrinə bu gün də rast gəlmək mümkündür.

Alban Apostol Kilsəsinin bərpası Azərbaycan dövləti və xalqının dini icmaların sərbəst fəaliyyətinə dəstəyinin bariz nümunəsidir. Sadə Azərbaycan vətəndaşları, həmçinin qeyri-hökumət təşkilatları, Qafqaz Müsəlmanları İdarəsi və digər təşkilatlar Alban Apostol Kilsəsinin restavrasiyasına öz səviyyələrinə uyğun dəstək göstəriblər. Xüsusilə, Azərbaycan prezidenti hər il bizə maliyyə dəstəyi göstərir. Nəticədə biz fəaliyyətimizi davam etdirir, abidələrimizi bərpa edirik.

Qafqaz Albaniyasının varisi olduğunu unutmayan, xristian mədəni irsini qorumaq üçün hər şeyi edən Azərbaycanın real siması budur.